# Vətənpərvərlik duyğularının poetikası

**Min illərdi söz var, sözə könül verənlər, sözün işığında yol gedənlər var. Bəzən adama elə gəlir ki, deyiləsi yeni söz qalmayıb, bir ömür yaşayan insanla, onun həyata gəlişi və həyatdan gedişi arasında Allaha, cəmiyyətə, təbiətə sevgiylə bağlı hər şey deyilib və yazılıb. Ancaq insan təfəkkürünün və düşüncəsinin sərhədləri nəhayətsizdir. Dünyanın, təbiətin, cəmiyyətin saysız-hesabsız görüntüsü mövcuddur və bu vizuallığı uşaqdan tutmuş qocayadək hər kəs özünəxas rakursdan qəbul edir. Şairlər bu görüntüləri, bu mövcudluğu özünəməxsus formada poetik duyumla ifadə edirlər. Bununla da insanı həm riqqətləndirən, heyrətləndirən, həm sarsıdan, həm də heyran edən estetik duyğu aləmi yaradırlar. Şairləri yaşadan da bu estetik aləmdir. Bunların məxsusi lirik, romantik dünyası oxucu üçün maraqlı səyahəti xatırladır. Virtual səyahəti sevənlər, virtual səyyah olmağı bacaranlar belə məqamları gözəl anlayırlar.**

Bu yazıda səmimiliyi və insani keyfiyyətləri ilə seçilən, sözə-sənətə könül bağlayan kövrək ruhlu bir şairənin mənə təqdim olunmuş kitabından söz açacağam. O, Tahirə Məğrurdur.

Poetik müstəvidə estetik idealın ifadə formaları müxtəlifdir. Yaradıcı insanın, daha dəqiq desək, şairin estetik idealının daşıyıcısı müxtəlif formalarda inkişaf edir. Şair hər şeydən əvvəl onu əhatə edən həyatda özünün yaradıcılıq idealları ilə mütənasib olan adamları təsvir və tərənnüm edir.

T.Məğrurun şeirlərinin lirik qəhrəmanı dünyada baş verən prosesləri izləyir, həssas müşahidə qabiliyyətinə mülikdir və həmin proseslərdə fəal iştirak edir. Onun poeziyasında önəmli cəhət yurd sevgisi, el-oba məhəbbəti, vətənsevərlik və yaddaşa qayıdış duyğusudur.

Bu misraları bir şair ömrünün himni kimi də dəyərləndirmək olar. Bu poeziyanın ruhuna hop-muş səmimiyyət poetik yükündən asılı olmayaraq, şairin hər misrasında duyulur.

Yaradıcılıq məziyyəti kimi maraq doğuran bu bədii faktorlar lirik özünəməxsusluğun vətəndaşlıq keyfiyyətlərinin açılmasında mühüm əhəmiyyət kəsb edir.

Tahirə Məğrurun kitabındakı şeirlərin mövzu rəngarəngliyi, həmçinin poetik dilin səmimi və əhangdar olması maraqlıdır. Kitabdakı nümunələr şairin həyat həqiqətlərini bədii həqiqətə uğurla inikas etdirdiyindən xəbər verir. Tahirənin əksər şeirlərində yurd yanğısı, qələbəyə inam, milli-mənəvi dəyərlərin tərənnümü diqqəti cəlb edir.

"Qəhrəmanlıq ünvanı" şeirində Milli Qəhrəman Mübariz İbrahimovun qəhrəmanlığına bədii sözün aynasında güzgü tutan şair obrazlı deyimləri ilə seçilir.

**Hünərlə dağıtdı yağı səddini,**
**Ellər alqışladı məharətini.**
**Qılınc tək siyirdi cəsarətini,**
**Düşmənin qəbrini qazdı Mübariz.**

Digər şeirlərində də şair hər gün təmasda olduğumuz havanı, suyu, torpağı, insanı və onlarla bağlı mətləbləri bədii sözün aynasında öz poetik imkanları daxilində canlandırmağa çalışır.

Tahirə Məğrur dilimizin zəngin və rəngarəng təhkiyələrindən, bədii təsvir və ifadə vasitələrindən bacarıqla istifadə edərək mövzunun bədii həllini, poetik ümumiləşdirməni səmimi ovqatla təqdim edə bilir.




Şairin dilimizin ədəbi və tarixi qaynaqlarına bağlılığı onun sözə məsuliyyətindən xəbər verir. Bununla belə Tahirə Məğrurun poetik dili, həm də müasir ədəbi irsimizdən qaynaqlanır və bəzən onun şeirlərində bədii ifadələr, söz birləşmələri, digər poetik vasitələr yaradıcılıq imkanlarının zənginliyi əsasında yaranır.

**Üzümü söykəyib göz yaşlarına,**
**Gəzirəm həsrətin səhralarını.**
**Dirilik suyu tək sənin adınla,**
**Yuyuram qəlbimin yaralarını.**

Onun yaradıcılığı demək olar ki, ahəngdarlığı, səmimi poetikası, ifadəliliyi ilə ürəyəyatımlıdır.

Hər bir insanın şəxsi taleyi olduğu kimi, hər şeirin də özəl taleyi var. Bir də var şairin taleyi. Şairin taleyi onun şeirlərinin, yazdıqlarının taleyidir.

Tahirə Məğrurun şeirləri potetika və ritarikadan uzaqdır. O, ifadə etdiyi fikri, məzmunu, lakonik, yığcam şəkildə təqdim etməyə üstünlük verir. Lakonikliyin, konkretliyin yolu, əlbəttə ki, obrazlılıqdır. Obrazlılığın mayası sayılan dilimizin incəliklərini duymaq, dilin poetik qatlarını açmaq bacarığı maraqlıdır.

Tahirə Məğrurun poemaları da məxsusi bədii keyfiyyətləri ilə seçilir. Poema universal janr olduğuna görə, şairin yaradıcılığında müşahidə edilən başqa ədəbi növlərə məxsus cəhətləri, sənətkarlıq xüsusiyyətlərini özündə cəmləşdirə bilir və onun lirik, epik, həm də üslubi imkanlarını bir janr daxilində ortaya çıxarır.

Şairənin yaradıcılığındakı lirik qəhrəmanın vətəndaşlıq mövqeyi, fəallığı mühüm əhəmiyyət daşıyır. Bu poetik nümunələrdə təlqin olunan inam, cəsarət yetkin vətəndaşlıq qayəsinin bədii ifadəsidir.

**Balayar Sadiq**
**AYB-nin üzvü,**
**Beynəlxalq Rəsul Rza mükafatı laureatı, Prezident təqaüdçüsü**